

# Gənclərin ölkəyə könüllü töhfəsi

**_Prezident İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edildi. Azərbaycanda könüllülük hərəkatının tarixinə nəzər yetirdikdə görürük ki, bu tarix çox əvvəllərə gedib çıxmaqla yanaşı, eyni zamanda, yaxşı adət-ənənə kimi də xalqımızın canına-qanına hopmuşdur. Elə bunun məntiqi nəticəsidir ki, ölkə Prezidentinin imzaladığı sərəncamda da qeyd edilir ki, Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır._**

Heç şübhəsiz ki, cəmiyyətin gələcəyi gənclərin əlindədir və öz gələcəyini düşünən hər bir cəmiyyət də onlara qayğı göstərir. Beləliklə də özünün xoşbəxt və firavan gələcəyinin təmin olunması istiqamətində zəruri addımlar atmaqla bir növ gələcəyini sığortalayır. Bu uzaqgörənlik, ilk dəfə, ümummilli lider Heydər Əliyevin fəaliyyətində yer tutmuşdur və bu gün də həmin siyasi kursun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli liderimizin siyasi uzaqgörənliyi sayəsində 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlamışdır. Məhz bu addımlar da bugünkü könüllülük hərəkatının inkişafı üçün zəmin yaratmışdır. Nəzərə alsaq ki, eyni zamanda, könüllülük vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət nümunəsidir, elə buna görə də bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş və dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Belə ki, Prezident İlham Əliyevin 9 iyun 2009-cu il tarixində imzaladığı "Könüllü fəaliyyət haqqında" qanun Azərbaycanda könüllülər hərəkatının daha da genişlənməsinə münbit zəmin yaratmışdır. Məhz bu qanunun qəbul edilməsi ilə Azərbaycan könüllüləri kütləvi şəkildə ölkəmizdə keçirilən siyasi, mədəni, idman tədbirlərinin idarə edilməsi proseslərinə cəlb edildilər. Elə ölkə Prezidentinin də sərəncamında qeyd olunduğu kimi, könüllülük hərəkatı xalqın, cəmiyyətin ən xoş niyyətləri uğrunda fəaliyyət göstərməyə sövq edən, insanları tək amal uğrunda xidmətə səsləyən, vətəndaş, cəmiyyət və dövlət üçlüyünün birgə fəaliyyətinin çox uğurlu təzahür formasıdır.

2020-ci ilin "Könüllülər ili" elan edilməsi, bütövlükdə, ölkəmizin ümumi inkişafına töhfə verən könüllülərin fəaliyyətinə yüksək dəyər verilməsinin, eyni zamanda, onlara bəslənən inamın təzahürüdür. Heç şübhəsiz ki, texnolgiyanın sürətli inkişafı və gənclərin də bu inkişafla ayaqlaşa bilmək potensialı və imkanları indiki nəslin yaradıcılıq qabiliyyətinin genişlənməsinə, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə yeni dünyanın çağırışlarına adekvat cavab verməsi ilə paralel şəkildə addımlayır. Məhz bu səbəbdəndir ki, bacarıqlı və könüllü gənclər ölkəmizdə keçirilən "Eurovision" mahnı müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar. Mütəxəssislər qeyd edirlər ki, bu tədbirlərdə könüllülərin həm sayı artır, həm də onlar ildən-ilə daha yüksək səviyyədə xidmət göstərirlər.

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edərkən haqlı olaraq qeyd etmişdir ki, bu gün dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə kütləvi etiraz aksiyalarında olduğu bir vaxtda Azərbaycan gəncləri küçələrdə deyil, universitetlərdə, məktəblərdədir, gənclər startap biznesinə qoşulublar, onlar hökumət məsələlərinə və könüllülük fəaliyyətinə aktiv cəlb olunublar. Məhz bu faktlar onu deməyə əsas verir ki, bu gün Azərbaycan könüllülərinin fəaliyyəti dünyadakı digər könüllü qruplarının fəaliyyəti üçün nümunə ola bilər.

Gənclərlə müntəzəm görüşən və onların fəaliyyətinə yüksək dəyər verən cənab Prezidentin fevral ayının 12-də Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılışında könüllülərlə görüşü bir daha ölkə başçısı səviyyəsində bu hərəkata önəm və dəstəyi sübut etdi. Könüllülər hərəkatının, əslində, ölkəmizdə "ASAN xidmət" mərkəzlərində başlanmasını qeyd edən ölkə başçısı əsas vəzifə kimi gənc vətəndaşların faydalı işlərə qoşularaq vətəndaşlara kömək göstərməsini vurğuladı. Eyni zamanda, cənab Prezident ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmlənməsində də könüllülərin fəaliyyətini yüksək qiymətləndirdi. Elə bu səbəbdəndir ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatları, o cümlədən BMT və digər qurumlar həm "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirir, həm də Azərbaycanda yaranmış və inkişaf edən Könüllülər hərəkatına yüksək dəyər verirlər.

Bir çox ölkələrdə, həmçinin Azərbaycanda gəncləri birləşdirən müxtəlif təşkilatların və ictimai birliklərin olmasına baxmayaraq, könüllülər hərəkatının bu ictimai təşkilatlar arasında xüsusi yer tutduğunu vurğulayan möhtərəm Prezidentimiz bunu Azərbaycan könüllülərinin vətənpərvər, bilikli, həm də istedadlı olması ilə əlaqələndirdi. "ASAN xidməti", "Regional İnkişaf" İctimai Birliyi, "Bir" tələbə könüllüləri və digər hərəkatları, eyni zamanda, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları bu gün ölkənin gələcək inkişafına mühüm töhfələr verir.



**_Şəbnəm HƏSƏNOVA,_**
**_Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı, politoloq_**